# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"nda və 2015-ci il 5 iyun tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1076 (Cild I) ilə təsdiq edilmiş "Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 5.1-1-ci bənd əlavə edilsin:

"5.1-1. Qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi qrant və ianələr, həmçinin onlardan istifadə üzrə təfsilatlı illik maliyyə hesabatını bu Qayda ilə müəyyən edilmiş formalara uyğun tərtib etməli (6 və 7 nömrəli formalar) və hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etməlidir.";

1.2. 5.2-ci bəndin birinci cümləsinə "Nazirliyi" sözündən sonra "və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi" sözləri əlavə edilsin;

1.3. həmin Qaydaya aşağıdakı məzmunda 5 və 6 nömrəli əlavələr edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 789 (Cild I) ilə təsdiq edilmiş "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.10-cu yarımbəndə "Nazirliyinə" sözündən sonra "və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə" sözləri əlavə edilsin;

2.2. 4-cü hissə üzrə:

2.2.1. 4.1-ci bəndin birinci cümləsində "15 (on beş) gün" sözləri "15 (on beş) iş günü" sözləri ilə, ikinci cümləsində "15 (on beş) günədək" sözləri "15 (on beş) iş gününədək" sözləri ilə əvəz edilsin;

2.2.2. 4.1-1-ci bənddə "sonrakı gün" sözləri "sonrakı iş günü" sözləri ilə əvəz edilsin;

2.2.3. 4.2-ci bəndin birinci cümləsindən "illər üzrə tərtib edilən" sözləri çıxarılsın;

2.2.4. 4.3-cü bəndin üçüncü cümləsi çıxarılsın.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 17 iyul 2024-cü il

№ 343

"Qeyri-hökumət təşkilatının illik maliyyə
hesabatının forması, məzmunu və
təqdim edilməsi Qaydası"na

**5 nömrəli əlavə**

## Qrant və ondan istifadə haqqında hesabat

**31 dekabr 20____ il tarixə**

**Forma № 6**

**VÖEN:**________________________________________________________

**Təşkilatın adı:** ________________________________________________

**Sahə (fəaliyyət növü):**__________________________________________

**Ünvan:**_______________________________________________________

**Təşkilatın Ədliyyə Nazirliyində qeydiyyat nömrəsi:** ________________

**Təşkilatın Ədliyyə Nazirliyində qeydiyyat tarixi:**____________________

**Layihə barədə məlumat (adı, mövzusu, başlanma və bitmə tarixi, müqavilənin (qərarın) qeydə alınmasını təsdiq edən bildirişin tarixi və nömrəsi):**_____________________________________________________

| **Sıra №-si** | **Maddələrin adı** | **Məbləğ** (manatla) | **Qeyd** |
|---|---|---|---|
| **1.** | **Layihənin adı** | | |
| 1.1. | Ayrılmış maliyyə vəsaiti | | |
| 1.2. | Xərclənmiş vəsait | | |
| 1.3. | Qalıq vəsait | | |
| **2.** | **Xərc maddələri üzrə** | | |
| 2.1. | Əməkhaqqı: | | |
| 2.1.1. | ştatda olan işçilər | | |
| 2.1.2. | ştatdankənar işçilər | | |
| 2.1.3. | əməyin ödənişi ilə bağlı digər pul ödənişləri (mükafat, bonus və s.) | | |
| 2.2. | Əməkhaqqına görə ayırmalar | | |
| 2.2.1. | ştatda olan işçilər | | |
| 2.2.2. | ştatdankənar işçilər | | |

| | | | |
|---|---|---|---|
| 2.2.3. | o cümlədən: | | |
| 2.2.3.1. | məcburi dövlət sosial sığorta haqqı | | |
| 2.2.3.2. | icbari dövlət sığortası | | |
| 2.2.3.3. | işsizlikdən sığorta haqqı | | |
| 2.2.3.4. | icbari tibbi sığorta haqqı | | |
| **3.** | **Layihə çərçivəsində icarə haqqı** | | |
| 3.1. | Daşınmaz əmlakın icarə haqqı | | |
| 3.2. | Daşınar əmlakın icarə haqqı | | |
| **4.** | **Kommunal xidmətlər haqqının ödənilməsi, o cümlədən:** | | |
| 4.1. | elektrik enerjisi haqqının ödənilməsi | | |
| 4.2. | qaz haqqının ödənilməsi | | |
| 4.3. | su haqqının ödənilməsi | | |
| 4.4. | istilik enerjisi (yanacaq) haqqının ödənilməsi | | |
| **5.** | **Ezamiyyə xərcləri, o cümlədən:** | | |
| 5.1. | ölkədaxili ezamiyyətlər | | |
| 5.2. | xarici ezamiyyətlər | | |
| **6.** | **Rabitə xidmətləri haqqının ödənilməsi, o cümlədən:** | | |
| 6.1. | telefon danışıq haqlarının ödənilməsi | | |
| 6.2. | poçt rabitəsi xidmətləri haqqının ödənilməsi | | |
| 6.3. | internet xidməti haqqının ödənilməsi | | |
| **7.** | **Yanacaq xərcləri** | | |
| **8.** | **Nəqliyyat xərcləri** | | |
| **9.** | **Mühafizə xərcləri** | | |
| **10.** | **Bank xidməti üzrə xərclər** | | |
| **11.** | **Reklam, təşviqat və tanıtım xərcləri** | | |
| **12.** | **Digər malların (işlərin və xidmətin) alınması, o cümlədən:** | | |
| 12.1. | dəftərxana və təsərrüfat xərcləri | | |
| 12.2. | mətbəə məhsulları üzrə xərclər | | |
| 12.3. | inventar və avadanlıqların alınması | | |

| | | | |
|---|---|---|---|
| 12.4. | qida məhsullarının alınması və təminatı | | |
| 12.5. | cari, əsaslı təmir və tikinti xərcləri | | |
| 12.6. | məsləhət xidmətlərinin və hüquqi yardım göstərilməsi xərcləri | | |
| 12.7. | əsaslı məqsədlər üçün verilən qrantlar və digər ödənişlər | | |
| 12.8. | qeyri-maddi aktivlər (elektron imza sertifikatlarının və digər qeyri-maddi aktivlərin alınması xərcləri) | | |
| 12.9. | digər əsas vəsaitlərin alınması | | |
| 12.10. | digər iş və xidmətlər haqqının ödənilməsi | | |

**Rəhbər**

**Mühasib**

“___” __________ 20____ il

“Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası”na

**6 nömrəli əlavə**

## İanə və ondan istifadə haqqında hesabat

**31 dekabr 20____ il tarixinə**

**Forma № 7**

**VÖEN:** ________________________________________________

**Təşkilatın adı:** ___________________________________________

**Sahə (fəaliyyət növü):** ____________________________________

**Ünvan:** _______________________________________________

**Təşkilatın Ədliyyə Nazirliyində qeydiyyat nömrəsi:** _______________

**Təşkilatın Ədliyyə Nazirliyində qeydiyyat tarixi:** _________________

**İanə verənlər barədə məlumat (hüquqi şəxsin adı, fiziki şəxs olduqda adı, soyadı, atasının adı, Ədliyyə Nazirliyi tərəfindən reyestrə daxil edildiyi tarix və nömrə:**__________________________________

| **Sıra №-si** | **Maddələrin adı** | **Məbləğ** (manatla) | **Qeyd** |
|---|---|---|---|
| **1.** | **İanələrin ümumi məbləği:** | | |
| 1.1. | Xərclənmiş vəsait | | |
| 1.2. | Qalıq vəsait | | |
| **2.** | **Xərc maddələri üzrə** | | |
| 2.1. | Əməkhaqqı: | | |
| 2.1.1. | ştatda olan işçilər | | |
| 2.1.2. | ştatdankənar işçilər | | |
| 2.1.3. | əməyin ödənişi ilə bağlı digər pul ödənişləri (mükafat, bonus və s.) | | |
| 2.2. | Əməkhaqqına görə ayırmalar | | |
| 2.2.1. | ştatda olan işçilər | | |

| | | | |
|---|---|---|---|
| 2.2.2. | ştatdankənar işçilər | | |
| 2.2.3. | o cümlədən: | | |
| 2.2.3.1. | məcburi dövlət sosial sığorta haqqı | | |
| 2.2.3.2. | icbari dövlət sığortası | | |
| 2.2.3.3. | işsizlikdən sığorta haqqı | | |
| 2.2.3.4. | icbari tibbi sığorta haqqı | | |
| **3.** | **İcarə haqqı** | | |
| 3.1. | Daşınmaz əmlakın icarə haqqı | | |
| 3.2. | Daşınar əmlakın icarə haqqı | | |
| **4.** | **Kommunal xidmətlər haqqının ödənilməsi, o cümlədən:** | | |
| 4.1. | elektrik enerjisi haqqının ödənilməsi | | |
| 4.2. | qaz haqqının ödənilməsi | | |
| 4.3. | su haqqının ödənilməsi | | |
| 4.4. | istilik enerjisi (yanacaq) haqqının ödənilməsi | | |
| **5.** | **Ezamiyyə xərcləri, o cümlədən:** | | |
| 5.1. | ölkədaxili ezamiyyətlər | | |
| 5.2. | xarici ezamiyyətlər | | |
| **6.** | **Rabitə xidmətləri haqqının ödənilməsi, o cümlədən:** | | |
| 6.1. | telefon danışıq haqlarının ödənilməsi | | |
| 6.2. | poçt rabitəsi xidmətləri haqqının ödənilməsi | | |
| 6.3. | internet xidməti haqqının ödənilməsi | | |
| **7.** | **Yanacaq xərcləri** | | |
| **8.** | **Nəqliyyat xərcləri** | | |
| **9.** | **Mühafizə xərcləri** | | |
| **10.** | **Bank xidməti üzrə xərclər** | | |
| **11.** | **Reklam, təşviqat və tanıtım xərcləri** | | |
| **12.** | **Digər malların (işlərin və xidmətin) alınması, o cümlədən:** | | |
| 12.1. | dəftərxana və təsərrüfat xərcləri | | |
| 12.2. | mətbəə məhsulları üzrə xərclər | | |

| | | | |
|---|---|---|---|
| 12.3. | inventar və avadanlıqların alınması | | |
| 12.4. | qida məhsullarının alınması və təminatı | | |
| 12.5. | cari, əsaslı təmir və tikinti xərcləri | | |
| 12.6. | məsləhət xidmətlərinin və hüquqi yardım göstərilməsi xərcləri | | |
| 12.7. | əsaslı məqsədlər üçün verilən qrantlar və digər ödənişlər | | |
| 12.8. | qeyri-maddi aktivlər (elektron imza sertifikatlarının və digər qeyri-maddi aktivlərin alınması | | |
| 12.9. | digər əsas vəsaitlərin alınması | | |
| 12.10. | digər iş və xidmətlərin haqqının ödənilməsi | | |

**Rəhbər**

**Mühasib**

“___” __________ 20____ il